







# Acıların acımızdır, Türkiyə!

**Türkiyədə baş vermiş ağır zəlzələnin nəticələrinin aradan qaldırılması ilə bağlı tədbirlər davam etdirilir. Ölkənin vitse-prezidenti Fuat Oktay bildirib ki, dağıntılar altında qalmış insanların xilas edilməsi üçün hər cür təcili və təxirəsalınmaz işlər görülür.**





Zəlzələ zonalarında ümumilikdə 338 min insan yataqxanalarda, universitetlərdə və digər sığınacaqlarda yerləşdirilib. Həlak olanların və yaralananların sayı hər an artır.

Prezident Rəcəb Tayyib Ərdoğan təbii fəlakətlə əlaqədar ölkədə yeddi günlük matəm elan edib. Ölkənin bütün ərazisində dövlət bayraqları endirilib.

Türkiyə Fövqəladə Hallar İdarəsinin baş direktoru Orxan Tatar bildirib ki, yeraltı təkanlar davam edir. Onun sözlərinə görə, dünən günorta saatlarına qədər 285 təkan qeydə alınıb: "Hər dəqiqə yeni təkanlar baş verir. Vətəndaşlardan xahiş edirik ki, binalardan uzaq dayansınlar".

Kandilli rəsədxanasından verilən məlumatda deyilir ki, dünən yerli vaxtla saat 10.11-də Malatya bölgəsində 5 kilometr dərinlikdə, 5,5 maqnitudalı daha bir zəlzələ qeydə alınıb. Fevralın 6-dan 7-nə keçən gecə nisbətən zəif başqa təkanlar da hiss edilib.

Ətraf mühit, şəhərsalma və iqlim dəyişikliyi naziri Murat Kurumun dediyinə görə, Kahramanmaraş zəlzələsində ümumilikdə 13,5 milyon vətəndaş zərər görüb. Zəlzələnin təsiri nəticəsində 5 min 757 bina dağılıb.

Fevralın 6-da Türkiyədə baş vermiş dəhşətli fəlakətdən sonra mütəxəssislər bildiriblər ki, 10 şəhəri yerlə-yeksan edən zəlzələnin sürəti qravitasiya sürətindən 2 dəfə çoxdur. "CNN Türk"ün verdiyi məlumata görə, dağıdıcı təsirin "anormal dərəcədə böyük" olduğunu qeyd edən mütəxəssislər 1500-cü ildə də Pazarcıkda belə bir zəlzələnin baş verdiyini vurğulayıblar. O zaman buna "kosmik fəlakət" adı verilib. Sanki 500 il ərzində gərginlik toplayan nasazlıq xətləri qırılıb.

İtaliyalı alim hesab edir ki, nasazlıq xəttinin yerləşdiyi Anadolu lövhəsi Ərəb lövhəsinə nisbətən ən azı üç metr şimal-şərq-cənub-qərb istiqamətində hərəkət edib və bu hərəkət cəmi 30-40 saniyədə reallaşıb.

Türkiyəyə ilk yardım əlini uzadan qardaş ölkələr, ilk növbədə Azərbaycan olub. Fevralın 6-da ölkəmizdən göndərilmiş iki yardım təyyarəsindən əlavə, dünən də Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, növbəti iki təyyarə yola salınıb. Təyyarələrdən biri ilə FHN-in hər cür tibbi avadanlıq və ləvazimatlarla təchiz olunmuş mobil səhra hospitalı göndərilib. Hospital 4 funksional bölmədən – qəbul-çeşidləmə, laboratoriya, cərrahiyyə və intensiv terapiya bölməsindən, 3 köməkçi konteynerdən və 3 hava ilə doldurulan moduldan ibarət olmaqla ən ağır yaralı və xəstələrin müayinə, əməliyyat və müalicəsi üçün müvafiq şəraitlə təmin olunub. Mobil səhra hospilatında nazirliyin peşəkar tibbi heyəti xidmət aparacaq.

İkinci təyyarə ilə dağıntılardan ziyan çəkmiş insanların yerləşdirilməsi üçün çadırlar, yataq dəstləri, qızdırıcılar və digər avadanlıqlar yola salınıb.

Dünən Azərbaycan Xarici İşlər Nazirliyindən bildirilib ki, 100-dən çox xilasedici mütəxəssisdən ibarət ilk qrup öz avadanlıqları ilə birlikdə Türkiyəyə xilasetmə işlərinə kömək etmək üçün zəlzələ bölgəsindədir: "Biz səninləyik, Türkiyə!"

Dünən ABŞ Prezidenti Co Bayden baş vermiş dəhşətli fəlakət və çoxsaylı insan tələfatı ilə əlaqədar Türkiyə lideri Rəcəb Tayyib Ərdoğana zəng edib. Ağ Ev başçısı yaralananlara tezliklə sağalmalarını arzulayıb.

Dünən Rusiya Fövqəladə Hallar nazirinin müşaviri Danil Martınov bildirib ki, Türkiyəyə gəlmiş Rusiya xilasediciləri zəlzələ zonasında bir neçə qrupa bölünüblər və gecə-gündüz fasiləsiz rejimdə işə başlayıblar. "İnterfaks.ru"nun məlumatına görə, rus xilasediciləri Kahramanmaraşda xidmətlərini davam etdirirlər.

Rusiya FHN başçısı Aleksandr Kurenkov deyib ki, Adana şəhərinə üç təyyarə göndərilib. Qrup 100 nəfərlik "Mərkəzi xilasetmə" və xüsusi riskli xilasetmə əməliyyatları üzrə "Lider" mərkəzindən ibarətdir.

Artıq Qazaxıstan Prezidenti Qasım-Comərd Tokayevin tapşırığına əsasən, qazax xilasediciləri və həkimləri də qardaş Türkiyəyə köməyə gəliblər. Qırğızıstan parlamentinin spikeri Nurlanbəy Şakiyev TBMM-nin sədri Mustafa Şəntopa zəng edərək başsağlığı verib. Fransa da Türkiyədə dağıdıcı zəlzələdən zərər çəkənlərə kömək etməyə hazır olduğunu bildirib.

Türkiyə Silahlı Qüvvələrinin yaratdığı "hava yardımı dəhlizi" vasitəsilə ölkənin cənub-şərqindəki zəlzələ zonasına 154 təyyarı enib. Fasiləsiz davam edən aviareyslər zonaya xilasedici briqadaları, texnika və hunanitar yardımları daşıyır. Əlaqələndirmə işinə iki "Akıncı" da cəlb edilib.

Xatırladaq ki, fevralın 6-da yerli vaxtla saat 4.17-də Türkiyənin Kahramanmaraş vilayətinin Pazarcık rayonunda 7,7 bal, saat 13:24-də isə Elbistan rayonunda 7,6 bal gücündə iki zəlzələ qeydə alınıb. Dünən günün sonunda aldığımız məlumata görə, zəlzələ nəticəsində ölənlərin sayı 5 min 500 nəfəri keçib. Dağıntılar altından sağ çıxarılanlar arasında iki aylıq körpə də olub. Zəlzələ qonşu ölkələrdə, o cümlədən, Suriya, Livan, Şimali Kipr Türk Cümhuriyyəti, yunan Kipri və İraqda da hiss olunub.

***Paşa ƏMİRCANOV,***
***"Xalq qəzeti"***